

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 may 2026-cı il №30 (3032) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış edib



*Mayın 4-də Ermənistanın paytaxtı İrəvan şəhərində "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı keçirilib.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə videobağlantı formatında çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Sabahınız xeyir və Bakıdan salamlar. Əvvəlcə mən "Avropa Siyasi Birliyi"nin Zirvə görüşündə çıxış üçün etdiyi dəvətə görə Prezident Koştaya təşəkkürümü bildirmək istəyirəm.

Prezident Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı biz Zirvə görüşündə iştirakımı müzakirə etdik və razılaşdıq ki, mən tədbirə videobağlantı formatında qoşulacağam. Mən, həmçinin auditoriyanı məlumatlandırmaq istərdim ki, bir il öncə Tiranaya səfərim zamanı Prezident Koşta və Prezident Fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyimi soruşdular. Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən "Avropa Siyasi Birliyi"nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan, həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik.

Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib.

(Ardı 3-cü səhifədə)

## İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana səfəri



*İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Respublikasına səfərə gəlib.*

Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Melonini hava limanında Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə təkbətək görüşü keçirilib.

* * *

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin şərəfinə işçi şam yeməyi verilib.

* * *

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən **Prezident İlham Əliyev** deyib:

- Xanım Baş nazir, nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Bizim müxtəlif aspektlər üzrə mükəmməl danışıqlarımız oldu. İndi danışıqlarımızı geniş tərkibdə davam etdirəcəyik. Əvvəlcə bizimlə bir yerdə olduğunuz üçün Sizə bir daha təşəkkür edirəm. Bu səhər, hətta dünəndən bəri necə məşğul olduğunuzu bilirəm. Ermənistandan gələrək bizi ziyarət etməyiniz çox rəmzi məna daşıyır. Bu, bir daha Azərbaycana dost münasibətin olduğunu göstərir. Bizim də İtaliyaya eyni münasibətimiz var. Sizin bugünkü səfəriniz strateji münasibətlərimizin inkişafında çox həlledici olacaq. Bir daha xoş gəlmisiniz.

**İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni** çıxış edərək deyib:

- Çox sağ olun, hörmətli Prezident. Burada olmaq mənim üçün şərəfdir və məndə məmnunluq hissi doğurur. Hesab edirəm ki, buraya gəlmək vacib idi, çünki Azərbaycan İtaliya üçün çox vacib tərəfdaşdır. Lakin buna baxmayaraq, mənə məlum oldu ki, 2013-cü ildən bəri İtaliyanın Baş naziri buraya səfər etməyib. Bu da mənə kifayət qədər qəribə görünür. Ona görə hesab edirəm ki, bu səfəri etmək həqiqətən vacib idi, çünki bizim əməkdaşlığımız həqiqətən də çox genişdir. Biz bir çox strateji sahələr üzrə əməkdaşlıq edirik, - əlbəttə ki, enerji, infrastruktur, bağlantı və mədəniyyət.

(Ardı 2-ci səhifədə)

## “Heydər Əliyev siyasəti və Azərbaycan Ordusunun tarixi zəfəri”

Müstəqillik hər bir xalqın ən böyük arzularından biri, milli mənsubiyyətinin və kimliyinin əsas dayağıdır. Tarix boyu xalqlar azad və suveren yaşamaq uğrunda saysız-hesabsız mübarizələr aparıb, bu yolda çoxlu qurbanlar veriblər. Bu müqəddəs amal uğrunda göstərilən fədakarlıq isə hər bir xalqın gücünü və birliyini nümayiş etdirən ən mühüm amillərdəndir.

Müasir dövrdə xalqımızın qarşısında duran ən ali vəzifələrdən biri müstəqilliyimizi qoruyub saxlamağı bacarmaqdır. Azərbaycan uzun illər boyu azadlıq və istiqlaliyyət uğrunda mübarizə aparıb, igid övladlarımız bu yolda canlarını fəda ediblər. Azadlığı və müstəqilliyi qazanmaq nə qədər çətindirsə, şərəflidirsə, onu qoruyub saxlamaq da bir o qədər mürəkkəb və məsuliyyətli bir işdir.

Bəşər tarixinin inkişafı sübut edir ki, hər bir xalqın milli-mənəvi irsini, əxlaqi dəyərlərini, genetik yaddaşını və tarixi kimliyini gələcək nəsillərə ötürməsi, suverenliyini təmin etməsi və ən əsası bu müstəqilliyi qoruyub saxlaması kimi çətin vəzifələr, taleyində mühüm rol oynayan görkəmli və fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə sıx bağlı olub.

(Ardı 5-ci səhifədə)

## “EFES-2026” təliminin hazırlıq məşqləri uğurla davam edir



Türkiyə Respublikasında Azərbaycan Ordusunun hərbi qulluqçularının da iştirakı ilə keçirilən "EFES-2026" çoxmillətli təlimin hazırlıq məşqləri uğurla davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin planına uyğun olaraq, iştirakçı ölkələrin hərbi qulluqçuları müxtəlif döyüş ssenariləri üzrə praktiki tapşırıqları icra edirlər.

Müasir döyüş aparma üsullarına uyğun olaraq, təlim qrupları yaşayış məntəqələrində şərti düşmənin hücum və təxribatlarının qarşısının alınması, obyektlərin mühafizəsi, yaralı hərbi qulluqçuya ilkin tibbi yardımın göstərilərək təxliyə olunması, eləcə də tunel, bunker və mağaralarda döyüşün aparılması üzrə tapşırıqları yerinə yetirirlər.



Təlimdə şərti düşmənin ağır texnikasının və canlı qüvvəsinin məhv edilməsi məqsədilə top və minaatanlardan, eləcə də pilotsuz uçuş aparatlarından istifadə edilir.

Hərbi qulluqçularımız qarşıya qoyulan tapşırıqların icrası zamanı yüksək peşəkarlıq və döyüş hazırlığı nümayiş etdirirlər.

# İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana səfəri

(Əvvəli 1-ci səhifədə)

İtaliya Respublikası Prezidentinin Azərbaycana səfəri həm də bizim mədəni əlaqələrimizin və universitetlə bağlı aparılmış işin nümayiş etdirilməsi nöqteyi-nəzərindən əlamətdar bir hadisə idi. Lakin hesab edirəm ki, biz həmişə birlikdə daha çox iş görə bilərik. Fikrimizcə, Azərbaycan bizim beynəlxalq müstəvidə çətin vəziyyətdə olmağımıza baxmayaraq, strateji tərəfdaşımızdır. Eyni zamanda, Azərbaycan körpü rolunu oynayır. Biz bu körpünün rolunu elan etmək istəyirik. Bu körpü buradan Aralıq dənizi regionuna qədər çox uzun bir körpü ola bilər.

* * *

Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış edib.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.



İlk növbədə, xanım Baş nazir, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Azərbaycan-İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə olacaqdır.

Bizim ölkələrimiz strateji tərəfdaşdırlar, 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanmışdır. Bizim münasibətlərimizin əsasını təşkil edən bu iki sənəd və sənədlərdə təsbit edilmiş məsələlər bu gün həyatda da öz əksini tapır. Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür.

Bildiyiniz kimi, bizim siyasi əlaqələrimiz ən yüksək səviyyədədir. Eyni zamanda, ticarət əlaqələrimiz də çox yaxşı vəziyyətdədir. İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il bizim ticarət dövriyyəmiz təxminən 12 milyard dollar təşkil etmişdir. Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında da ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun üçün, təbii ki, Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir.

Bizim yeni əməkdaşlıq sahəmiz olan hərbi-texniki əməkdaşlıq ümidvericidir. Bu gün bu barədə də danışıldı. Birgə layihələrin həyata keçirilməsi, birgə istehsalın təşkil edilməsi, İtaliya texnologiyalarının Azərbaycan maliyyə vəsaitinin birləşməsi ilə əlaqədar konkret fikirlərimiz var. Bu barədə də geniş danışılıb.

İtaliya bazarı bizim üçün çox maraqlıdır. İtaliya iqtisadiyyatı xanım Baş nazirin rəhbərliyi ilə uğurla inkişaf edir. Azərbaycan Dövlət Neft Fondu son bir neçə il ərzində İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub. Bu sərmayələrin yeni layihələrə cəlb edilməsi məsələləri də müzakirə olunmuşdur.

Əlbəttə ki, İtaliya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinin çox böyük tarixi var. Hazırda İtaliyanın 130-a yaxın şirkəti Azərbaycanda fəaliyyət göstərir. İstəyirəm ki, onların sayı daha da çox olsun. O cümlədən işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və həyata keçirir. Xarici ölkələrin şirkətlərinə baxdıqda bu layihələrin icrasında İtaliya yenə qabaqcıl yerlərdədir. Təbii ki, bütün bu biznes, kommersiya, ticarət əlaqələri, şirkətlərin birgə fəaliyyəti və digər məsələlərlə yanaşı, biz bəlkə də ən vacib sahəni də unutmamışıq, o da təhsil sahəsidir. Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir.

Hörmətli xanım Baş nazir və nümayəndə heyətinin üzvləri, sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

* * *

Sonra İtaliya Nazirlər Şurasının sədri bəyanatla çıxış edib.

### Nazirlər Şurasının sədri Ciorcia Meloninin bəyanatı

- Çox sağ olun, cənab Prezident.

Hamınıza "Axşamınız xeyir olsun" deyirəm.

Bu gün burada - Bakıda olmaqdan çox məmnunam. Təbii ki, bir daha cənab Prezident Əliyevə və bütün hökumətə bizə göstərilmiş çox səmimi qəbula, həmçinin bu gün ərzində apardığımız çox məhsuldar dialoqa görə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri, təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir.

Birmənalı olaraq, əməkdaşlığımızı hər zaman səciyyələndirən sahələrdən biri enerji sahəsidir. İtaliyaya qaz və neftin ixracı Ukraynaya qarşı Rusiyanın təcavüzkar müharibəsi başladıqdan sonra şərəflə təmsil etdiyim ölkənin enerji təhlükəsizliyində müəyyənedici amil rolunu oynayır. Bu əlaqələrin möhkəmləndirilməsi barədə aydın şəkildə söhbət apardıq. Biz nəinki təchizat həcmləri, xüsusilə bütün sahələr üzrə sənaye tərəfdaşlığının keyfiyyəti üzərində çalışmalıyıq. Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır. Aydındır ki, bu cür plan sərmayələri, uzunmüddətli proqramları, ölkələrimizdə istehsal və sənaye sistemlərimizin ən münasib imkanlarının bir araya gətirilməsini tələb edir. Bu səbəbdən biz 2026-cı ilin ikinci yarısında burada, Bakıda biznes-forum təşkil etməyi planlaşdırmışıq ki, siyasi əməkdaşlığımızı müəssisələrimiz, işçilərimiz üçün konkret fürsətlərə çevirək.

Mən Prezidentlə razıyam ki, bütün bunlar istər son illərdə gözəçarpan Azərbaycan sərmayələrinin İtaliyaya yatırılmasında, istərsə də Azərbaycan tərəfi üçün İtaliyanın genişmiqyaslı sərmayələrinin ayrılmasında görünür. Cənab Prezident, söhbətlərimizdə qeyd etdiyimiz kimi, təsdiqləyə bilərəm ki, strateji planların, inkişaf planlarının, 360 dərəcəlik müasirləşmədə nəinki ikitərəfli qaydada, o cümlədən üçüncü ölkələrdə birgə işin icrasında çox böyük marağı olan çoxsaylı İtaliya müəssisələri var. Çünki energetika əməkdaşlığımızın yeganə sahəsi deyil. Bir çox digər sahələr var.

Həlledici digər sahə müdafiə və təhlükəsizlik sahəsidir. Bu sahədə, aerokosmik sənaye, dəniz təhlükəsizliyi, mühüm infrastrukturun mühafizəsi, üstün texnologiyalar kimi sahələrdə İtaliyanın ən kamil nəticələrini dəyərləndirərək əməkdaşlığı dərinləşdirmək istəyirik. Biz elə bir model təklif edirik ki, sənaye sistemləri arasında əməkdaşlıq nəticəsində biliklərlə mübadilə, birgə inkişaf, regional sabitliyə töhfə verə biləcək gələcək perspektivli sahələr və nəhayət, sənaye sistemlərimizi birləşdirən amillər olsun.

Bununla belə, dostluğumuz münasibətlərimizdə, cəmiyyətlərimiz arasında əlaqələrdə, mədəni bağlantılarda dərin köklər salıb. Burada, Bakıda respublika Prezidenti Mattarellanın iştirakı ilə Azərbaycan Diplomatik Akademiyasının nəzdində açılmış universitet İtaliyanın beş nüfuzlu universiteti ilə əməkdaşlıqdan formalaşmışdır. Yekun nəticədə bütün bunlar mədəniyyət, gələcək nəsillər, xalqlarımız arasında əlaqələr, bu gün həm mədəniyyət, həm ərzaq təhlükəsizliyi sahələrində əldə



etdiyimiz razılaşmalar ümumi məramımızın rəmzi anlarıdır. Bütün bunlar eyni istiqamətdə inkişaf edir.

Təbii ki, Prezident Əliyevlə İranla bağlı böhrandan tutmuş bölgəmizdə baş verən və həmımıza aid olan hadisələrə qədər əsas beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardıq. Aydın şəkildə, mənim üçün İranla ümumi sərhədi olan, İranla uzun ümumi tarixə malik ölkənin Prezidentinin fikrini dinləmək çox maraqlı oldu. Bir daha arzu edirik ki, bu böhran mümkün qədər ən qısa müddətdə aradan qalxsın. Bu məqsədə xidmət edən hər hansı təşəbbüsə dəstək verməyə, bölgədə sabitliyin qurulmasına öz sadiqliyimizi bir daha vurğuladım. Mən, həmçinin Azərbaycana, Prezidentə və Azərbaycanın bütün hakimiyyət orqanlarına İranda təhlükə ilə üzləşən, ölkəni tərk etməyə məcbur olan çoxsaylı italyan vətəndaşların təxliyə olunmasında İtaliya üçün lazımi əməliyyatları həyata keçirdiyinə təşəkkürümü bildirmək istəyirəm.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış edib

(Əvvəli 1-ci səhifədə)

Sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər. Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm.



Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA). Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.

İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılması aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın.

Yekun olaraq mən Baş nazir Paşinyanı "Avropa Siyasi Birliyi"nin Zirvə görüşünün Ermənistanda keçirilməsi ilə bağlı təbrik etmək istəyirəm. Bildirirəm ki, prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir. Mən Zirvə görüşünə uğurlar arzu edirəm. Sağ olun.

* * *

Tədbirdə Ermənistanın Baş naziri Nikol Paşinyan çıxış edərək, indi Azərbaycanla sülhə nail olunduğunu, artıq iki ildir heç bir tərəfdə tələfat olmadığını və bu dövrün müstəqilliyimizdən bəri yaşadığımız misilsiz illər olduğunu bildirib. Qeyd edib ki, indi iki ölkə arasında sülhü gücləndirmək və institusionallaşdırmaq məqsədilə tərəflər sıx şəkildə çalışırlar. Ermənistanın Baş naziri ilk dəfədir ki, Azərbaycan Prezidentinin onlayn formatda olsa da belə Ermənistanda keçirilən tədbirdə iştirak etdiyini xüsusi vurğulayıb və ümidvar olduğunu bildirib ki, 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 10-cu toplantısında iştirak etmək üçün Azərbaycana səfər imkanı olacaq. Nikol Paşinyan Ermənistanın və Azərbaycanın "Avropa Siyasi Birliyi"nin toplantısını qəbul etmək üçün bir-birinin namizədliyini qarşılıqlı şəkildə dəstəklədiklərini də vurğulayıb.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta tədbir iştirakçılarına və videokonfrans vasitəsilə toplantıya qoşulan Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib. Bildirib ki, bu toplantı tarixi səciyyə daşıyır, çünki onun keçirilməsi Ermənistan və Azərbaycan arasında razılaşma sayəsində mümkün olub. Bu razılaşma Avropada bir sülh hekayəsidir, eskalasiyanın və müharibənin hökmranlıq etdiyi bir dünyada alqışlanmalıdır.

Ukrayna Prezidenti Volodimir Zelenski isə çıxışına mühüm mesajla başlayıb. "Biz Ermənistana və Azərbaycana yalnız sülh - dayanıqlı, hərtərəfli, uzunmüddətli sülh arzulayırıq. Biz bunu, Baş nazir, sizə, Prezident Əliyevə və hər iki ölkənin xalqlarına arzulayırıq", - deyə o xüsusi vurğulayıb.

Kanadanın Baş naziri Mark Karni də Ermənistan ilə Azərbaycan arasında sülh istiqamətində əldə olunmuş tərəqqiyə görə təbriklərə qoşulduğunu bəyan edib və Prezident İlham Əliyevi salamlayıb.

## Ötən ay 460 mina və 3410 partlamamış digər hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 2026-cı ilin aprel ayında minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 344, tank əleyhinə 116 mina və 3410 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 7788,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




# İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana səfəri



(Əvvəli 2-ci səhifədə)

Sizin tərəf bu işdə tam tədbirləri gördü və daha dəqiq desək, Sizə təşəkkür edirəm ki, Tehrandakı səfirliyimizin müvəqqəti olaraq Bakıya köçürülməsinə, təhlükəsizlik şəraitində səmərəli şəkildə işləməsinə dəstək verdiniz. Bu, dostluğumuzu nümayiş etdirən digər elementdir.

Biz Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun gücləndirilməsinin vacibliyini qeyd etdik. Enerji və daşımalar birmənalı olaraq iki sahədir ki, Avropa daha vacib rol oynaya bilər və oynamalıdır. Beləliklə, sərmayələrə dəstək, enerji şəbəkələrinə, beynəlxalq daşımalar marşrutlarına Azərbaycanın daha böyük inteqrasiyası təmin edilə bilər.

Ermənistanla münasibətlər mövzusunu müzakirə etdik. Mən Birləşmiş Ştatların verdiyi təkan sayəsində tarixi mərhələni əks etdirən normallaşma yolunda İtaliyanın tam dəstəyini bir daha vurğuladım. Düşünürəm ki, 2026-cı il bu baxımdan mühüm ilə çevrilə bilər, çünki çox vacibdir ki, bu dinamik regionun bütün potensialı istifadə edilsin. Həmçinin Ukraynada ədalətli və dayanıqlı sülhə yönəlmiş diplomatik səylər də öz nəticəsini verməlidir. Çünki ölkələrimiz çox dəstək göstərib, Ukrayna xalqının yanında olub.

Bir sözlə, iş əsnasında bizi birləşdirən çoxsaylı mövzular var. Söylədiyim kimi, bu işləri birgə icra edə bilərik. Yekun olaraq bir daha bildirirəm ki, biz aydın məsələlərin az sayda olduğu dövrdə yaşayırıq və tam təbiidir ki, bu kimi hallar az olanda biz bir-birimizə daha çox bağlanmalıyıq. Məhz bu səbəbdən İtaliya Azərbaycanla həyata keçirdiyi mühüm tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq kimi görür və bundan sonra da uzunmüddətli olmasını istəyir.



Cənab Prezident, səmimi qəbula və bizimlə apardığınız çox maraqlı söhbətə görə bir daha təşəkkür edirəm.

* * *

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycan Respublikasına işgüzar səfəri mayın 4-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülübdü.

İtaliyanın Nazirlər Şurasının sədri Meloninin Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi prokuror Müdafiə Nazirliyinin "N" hərbi hissəsində olub







*Mayın 4-də Müdafiə Nazirliyinin Raket və Artilleriya Qoşunları Baş İdarəsinin "N" saylı hərbi hissəsində "Ulu Öndər irsi - dövlətçilik və ordu quruculuğunun təməli" mövzusunda tədbir keçirilib.*

Hərbi Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Hərbi prokuror Bəhruz Əhmədov və Müdafiə Nazirliyinin rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələri dərin ehtiramla yad olunub.

Tədbirdə çıxış edənlər vurğulayıblar ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində müasir ordu quruculuğunun təməli qoyulub, dövlətimizin müdafiə qabiliyyəti əhəmiyyətli dərəcədə gücləndirilib, nizami ordu formalaşdırılaraq, Silahlı Qüvvələrin inkişafı üçün misilsiz xidmətlər göstərilib. Dahi şəxsiyyətin bizə miras qoyduğu dövlətçilik dəyərlərini yaşatmaq hər birimizin mənəvi borcudur.

Daha sonra çıxış edən Müdafiə Nazirliyinin Raket və Artilleriya Qoşunları Baş İdarəsinin rəisi, Raket və Artilleriya Qoşunları komandanı, general-leytenant Ağamir Sultanov artilleriyaçıların hazırlanması və peşəkarlığının artırılmasının ordu üçün ciddi strateji əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Artilleriyaçıların 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatlarında göstərdikləri qəhrəmanlıqlardan bəhs edilib, ölkə rəhbərliyinin diqqət və qayğısı ilə bu sahədə görülmüş işlər barədə geniş məlumat verilib və artilleriyaçıların Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, İlham Əliyev tərəfindən qarşıya qoyulacaq bütün əmr və tapşırıqları vaxtında yerinə yetirməyə qadir olduqları bildirilib.

Hərbi prokuror görüş zamanı hərbi qulluqçuların məişət şəraiti ilə tanış olub, artilleriyaçılara nizam-intizamın artırılması ilə bağlı zəruri tövsiyə və tapşırıqlarını verib.

Tədbirin sonunda xidmətdə fərqlənən artilleriyaçılara hədiyyələr təqdim olunub və xidməti fəaliyyətdə uğurlar arzulanıb.

## "TurAz Qartalı-2026" birgə taktiki-uçuş təlimi başa çatıb



Mayın 2-də Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin iştirakı ilə ölkəmizdə keçirilən "TurAz Qartalı-2026" birgə taktiki-uçuş təlimi başa çatıb.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin başa çatması münasibətilə iştirakçılara brifinq təqdim olunub.

Bildirilib ki, təlim müddətində hər iki qardaş ölkənin hərbi pilotları birgə uçuşlar həyata keçirib, verilən tapşırıqları peşəkarlıqla yerinə yetiriblər.



Təlimdə ssenariyə uyğun olaraq, müvafiq uçuşların planlaşdırılması, Hava Hücumundan Müdafiə (HHM) vasitələrinin və digər hədəflərin yerlərinin aşkar olunması, məlumatların Birləşmiş Hava Əməliyyat Mərkəzinə ötürülməsi və onların məhv edilməsi, eləcə də digər fəaliyyətlər müvəffəqiyyətlə icra olunub.

Həmçinin heyətin fərqli şəraitlərdə uçuş bacarıqlarının artırılması, yeni texnika və silah sistemləri ilə tanışlıq məqsədi ilə mübadilə uçuşlarının yerinə yetirilməsi, aviasiya vasitələrindən tətbiq olunan radioelektron mübarizə şəraitində HHM vasitələrinin fəaliyyətinin qiymətləndirilməsi tapşırıqları da yerinə yetirilib.

Hərbi pilotların fəaliyyətləri təlim rəhbərləri tərəfindən yüksək qiymətləndirilib, iştirakçılara gələcək xidmətlərində uğurlar arzulanıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

## Milli Müdafiə Universitetinin hərbi qulluqçusu NATO Regional Əməkdaşlıq kursunu uğurla başa vurub

İtaliya Respublikasının paytaxtı Roma şəhərində yerləşən NATO Müdafiə Kollecində (NDC) 35-ci NATO Regional Əməkdaşlıq kursunun (NRCC-35) buraxılış mərasimi keçirilib.



Milli Müdafiə Universiteti xəbər verir ki, Kollecdə təhsil alan Milli Müdafiə Universitetinin hərbi qulluqçusu polkovnik-leytenant Anar Nurəddinov bütün akademik tələbləri yerinə yetirərək kursu uğurla başa vurub. Hərbi qulluqçumuz kurs müddətində NATO-nun institusional mexanizmləri və müasir hibrid təhdidlər üzrə dərin təhlil bacarığı, eləcə də müzakirələrdə fəallığı ilə seçilib.

Tədbirin sonunda məzunlara hərbi təhsil müəssisəsinin komandanı tərəfindən diplomlar təqdim edilib.

# Ordu quruculuğuna strateji baxış

Azərbaycan dövlətçiliyinin müasir mərhələsində ordu quruculuğu milli təhlükəsizliyin və dövlət suverenliyinin əsas dayaqlarından biri kimi formalaşıb. Bu prosesin ideoloji və strateji əsasları xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyən edilib.

Ulu Öndər Heydər Əliyev dövlətçiliyimizin xilası və möhkəmləndirilməsi üçün ordu quruculuğunu prioritet istiqamət kimi əsaslandırıb. Müstəqilliyin ilk illərində mövcud olmuş nizamsız hərbi strukturların sistemləşdirilməsi, vahid komandanlıq prinsipinin formalaşdırılması və dövlət nəzarətinin gücləndirilməsi bu siyasətin əsas elementləri idi. Həmin dövrdə nizami ordu strukturu yaradıldı, hərbi intizam və idarəetmə sistemi formalaşdırıldı, zabit kadrlarının hazırlanmasına xüsusi diqqət yetirildi. Beləliklə, ordu dövlət institutuna çevrildi. Ən mühüm strateji xətt isə ordu quruculuğunun dövlətçilik ideologiyası ilə vəhdət təşkil etməsi idi. Bu vəhdət sonrakı mərhələlər üçün möhkəm baza yaratdı. Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatların əsas prinsipi ölkədə güclü ordunun yaranması idi. Bu prinsip sonrakı illərdə dövlət siyasətinin ayrılmaz xəttinə çevrildi və ordu quruculuğu prosesinin davamlılığı təmin olundu.

2003-cü ildə xalqın böyük dəstəyi ilə Prezident seçilən İlham Əliyev bu strateji əsasları daha da inkişaf etdirərək müasir tələblərə uyğunlaşdırdı. Məhz bu davamlılıq sayəsində Azərbaycan Ordusu yeni mərhələyə keçid üçün hazırlıqlı oldu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoydu. Peşəkar hərbi kadrların hazırlanması genişləndirildi. Təlim və tədris sistemində beynəlxalq standartlara uyğun islahatlar həyata keçirildi. Silahlı Qüvvələrdə daha çox modernləşmə, peşəkarlığın artırılması və texnoloji yenilənmə müşahidə olundu. Belə ki, Azərbaycan Ordusunda müasir silah sistemlərinin tətbiqi gücləndirildi. Pilotsuz uçuş aparatları (PUA), yüksək dəqiqlikli silahlar və müasir komanda-idarəetmə sistemləri ordunun döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artırdı.

Ölkədə hərbi sənaye potensialı gücləndirildi, bir sıra silah və texnika növlərinin yeni istehsalı təmin edildi. Bu, ordunun maddi-texniki təminatında xarici asılılığı azaldan mühüm faktor oldu. Azərbaycan Ordusu müxtəlif ölkələrlə hərbi əməkdaşlıq proqramlarını genişləndirərək, NATO standartlarına uyğun təlimlərdə iştirakını artırdı. Bu gün hərbi qulluqçularımız həmin təlimlərdə yaxından iştirak edir və ölkəmizin hərbi gücünü bir daha nümayiş etdirirlər.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi ən mühüm nəticə 2020-ci ildə başlayan Vətən müharibəsində yeni reallıqları üzə çıxardı. Bu müharibə ordu quruculuğunda həyata keçirilmiş islahatların real döyüş şəraitində təsdiqi oldu.

Azərbaycan Ordusu yüksək koordinasiya, müasir texnologiyaların effektiv istifadəsi və peşəkar komandanlıq sistemi ilə tarixi Zəfər qazandı. Tarixi Zəfər regionda hərbi-strateji balansı dəyişdi. Azərbaycan Ordusunun inkişaf tarixi dövlətçilik ənənələrinin və strateji idarəetmə modelinin davamlılığını nümayiş etdirdi. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək müasir, çevik və yüksək döyüş qabiliyyətinə malik bir ordu modelinə çevrildi. Bu inkişaf mərhələsi həm hərbi gücün, həm də milli dövlətçiliyin möhkəmlənməsi və regional təhlükəsizlik sistemində Azərbaycanın rolunun güclənməsi ilə xarakterizə olunur.

Post-müharibə dövründə Azərbaycan Ordusu qarşısında yeni vəzifələr dayanır. Azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin edilməsi, yeni hərbi infrastrukturun qurulması və sərhədlərin qorunması əsas prioritet məsələlər sırasındadır. Bu gün Azərbaycan əsgəri Vətənimizin keşiyində qürurla dayanır və ərazi bütövlüyümüzü böyük şücaətlə qoruyur.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# “Heydər Əliyev siyasəti və Azərbaycan Ordusunun tarixi zəfəri”

(Əvvəli 1-ci səhifədə)

Ötən yüzillikdə xalqımızın dünya siyasi mühitinə bəxş etdiyi nadir və fenomenal şəxsiyyət olan Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti nəticəsində milli dövlətçilik ideyası müstəqil Azərbaycan dövlətinin gerçəkliyinə çevrilib. Ən önəmlisi, Ümummilli Liderimizin nümayiş etdirdiyi böyük fədakarlıqlar nəticəsində ata-babalarımızın qurub yaratdığı dövlətin möhkəmliyi təmin olunub, demokratik inkişafı gücləndirilib, Azərbaycanın müstəqilliyinin əbədiliyi, daimiliyi və dönməzliyi qorunub saxlanılıb. Ulu Öndərin ölkəmizin sosial-iqtisadi, siyasi, hərbi və mədəni sahələrdə inkişaf edib irəliləməsi üçün gördüyü tədbirlər, həmçinin milli şüurun formalaşıb yüksəlməsi istiqamətində atdığı addımlar olmasaydı, bu gün Azərbaycanın müstəqil siyasət yürüdüb öz xəttinə malik suveren dövlət kimi mövcud olub fəaliyyət göstərməsindən bəhs etmək mümkün olmazdı.

Bu gün əldə olunan nəticə ondan ibarətdir ki, bütün həyatını xalqa təmənnasız xidmətə həsr edən, milli maraqları hər zaman bütün amillərdən üstün tutub qoruyan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin sarsılmazlığını və əbədiliyini təmin edib. Eyni zamanda, ölkənin üzləşə biləcəyi çətinlikləri əvvəlcədən görüb qiymətləndirən Ümummilli Lider zamanı qabaqlayıb, Azərbaycanın davamlı inkişaf edib irəliləməsi, dövlət müstəqilliyinin daha da möhkəmlənməsi istiqamətində mühüm işlər həyata keçirib, strateji maraqların təmin olunması üçün vacib və qətiyyətli addımlar atıb.

Tarixi təcrübə göstərir ki, ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü qoruyub təmin edən əsas qüvvə olmaqla yanaşı, dövlət quruculuğunun mühüm tərkib hissələrindən biri kimi çıxış edib. Həmçinin, məlumdur ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü və qüdrətli ordunun formalaşdırılması hər zaman prioritet istiqamətlərdən biri olub. Ümumən yanaşdıqda, ordu amili hər bir dövlətin həm daxili, həm də xarici siyasətinin əks etdiricisi kimi qiymətləndirilir. Dövlətin və cəmiyyətin orduya göstərdiyi münasibət, əslində, onun öz nüfuzuna, bu gününə və gələcəyinə verdiyi dəyərin göstəricisi sayılır. Ordu amilinin əhəmiyyəti isə birbaşa olaraq onun döyüş qabiliyyətindən asılı olur.

Müasir dövrdə Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etsə də, vahid komandanlığa əsaslanıb təşkil olunan, nizami və mütəşəkkil, ən başlıcası isə müstəqilliyimizə və dövlətçiliyimizə yönələ biləcək təhlükələrin qarşısını almağa qadir ordunun yaradılması yalnız Dahi Rəhbər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli çağırışı ilə hakimiyyətə qayıdışından sonra mümkün olub. Bu baxımdan qürurla qeyd edə bilərik ki, Dahi Liderin rəhbərliyi ilə dövlətçilik ənənələrinə söykənib 1993-cü ildən etibarən həyata keçirilən quruculuq prosesinin ən şərəfli və parlaq səhifələrindən biri bu gün gücü getdikcə artan və qüdrəti ilə fəxr etdiyimiz Azərbaycan Ordusudur.




Hakimiyyətdə olduğu dövrdə Əbədiyaşar Komandan Heydər Əliyev Azərbaycan Ordusunun formalaşdırılıb inkişaf etdirilməsi məsələsini daim diqqət mərkəzində saxlayıb. Hələ sovet illərində Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusu üçün peşəkar kadrların hazırlanması istiqamətində mühüm bir addım kimi həyata keçirilib.

Əbədiyaşar Komandan Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdıb fəaliyyətə başlamasından sonra həyata keçirdiyi məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırılıb, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması istiqamətində təxirəsalınmaz addımlar atılıb, orduda vahid komandanlıq sistemi formalaşdırılıb, hərbi nizam-intizam və qanunçuluq isə daha da möhkəmləndirilib. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü qoruyub təmin etməyə tam qadir güclü orduya malik olması Dahi Şəxsiyyət Heydər Əliyevin xalq qarşısında göstərdiyi misilsiz xidmətlərindən biri kimi dəyərləndirilir.

Dövlət quruculuğunun digər sahələrində olduğu kimi, ordu quruculuğu istiqamətində də müasir və güclü Azərbaycan Ordusunun təməlini qoyan Ümummilli Lider Heydər Əliyevin siyasi xətti uğurla davam etdirilir. Bu gün ordumuz döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət baxımından mühüm nailiyyətlər qazanaraq, hər keçən gün daha da möhkəmlənib qüdrətlənir. Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin əsas təminatçısı kimi yanaşan hər bir Azərbaycan vətəndaşı bu gün öz ordusu ilə, həqiqətən də, qürur duyur.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılıb gücləndirilməsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi davamlı şəkildə həyata keçirilən bir prosesdir. Döyüş hazırlığına göstərilən xüsusi diqqətin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu həm quruda, həm havada, həm də dənizdə verilən istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək imkanına malikdir. Məlumdur ki, hər bir ordunun gücü onun döyüş qabiliyyəti ilə yanaşı, mənəvi ruhunun vəhdətində formalaşır.

Hazırda Azərbaycan cəmiyyətində və orduda Dahi Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış, elmi-nəzəri əsasları zamanın sınağından uğurla çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə şəraitində hərbi qulluqçuların Vətənə, xalqa və dövlətə bağlılığının gücləndirilməsi, onların ümummilli maraqlar ətrafında birləşdirilməsi bu istiqamətdə aparılan siyasətin əsas məqsədlərindən biridir.

Eyni zamanda, Azərbaycanda ali hərbi təhsil sisteminin inkişaf etdirilməsi, tədris prosesinin NATO-ya üzv ölkələrin, dünyanın aparıcı ordularının qabaqcıl təcrübəsinə uyğun şəkildə qurulması artıq öz müsbət nəticələrini göstərir. Bu gün Azərbaycan Ordusu peşəkar, hazırlıqlı və yüksək vətənpərvərlik ruhuna malik zabit heyəti ilə təmin olunur, həmçinin onun maddi-texniki bazası daha da möhkəmləndirilir.

2018-ci ildə Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə təşkil olunan hərbi parad bir çox ölkələrdə Azərbaycan Ordusu barədə müsbət və yüksək təsəvvürün formalaşmasına səbəb olub. Eyni təəssürat Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun və qanunvericiliyə uyğun digər hərbi birləşmələrin iştirakı ilə keçirilən birgə əməliyyat-taktiki təlimlər nəticəsində də yaranıb. Bu gün orduda xidmət etmək hər bir Azərbaycan gənci üçün böyük qürur və şərəf nümunəsi hesab olunur.

Yeri gəlmişkən, 2020-ci ildə Vətən müharibəsində qazanılan möhtəşəm Qələbədən sonra keçirilən Zəfər paradı isə Azərbaycan Ordusunun gücünü və xalqımızın birliyini bütün dünyaya bir daha nümayiş etdirdi. 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında təşkil olunan bu tarixi parad Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətini, yüksək peşəkarlığını və müasir texniki təchizatını əyani şəkildə ortaya qoydu. Sözügedən paradda Vətən müharibəsində iştirak etmiş hərbi hissələr, hərbçilər iştirak edərək, xalqın sonsuz hörmət və ehtiramını qazandılar. Paradda, həmçinin müasir silah və texnikalar, o cümlədən müharibə zamanı istifadə olunmuş hərbi vasitələr nümayiş etdirildi. Bu, Azərbaycanın hərbi qüdrətinin real göstəricisi olmaqla yanaşı, ölkəmizin müdafiə potensialının yüksək səviyyədə olduğunu sübut etdi. Paradda qardaş Türkiyə Respublikasının hərbçilərinin iştirakı Azərbaycan-Türkiyə qardaşlığının və strateji müttəfiqliyinin rəmzi kimi xüsusi əhəmiyyət kəsb etdi. Bu hadisə təkcə hərbi deyil, həm də hərbi-siyasi və mənəvi baxımdan böyük mesaj daşıyaraq, regionda yeni reallıqların formalaşdığını göstərdi.

Zəfər paradı Azərbaycan xalqının uzun illər həsrətində olduğu ədalətin bərpa olunmasının, torpaqlarımızın işğaldan azad edilməsinin və milli qürurun bərpasının təntənəli ifadəsi kimi tarixə həkk olundu. Bu möhtəşəm hadisə həm də sübut etdi ki, güclü dövlət, güclü ordu və qətiyyətli rəhbərlik bir araya gəldikdə xalqın arzuları reallığa çevrilir.

Zəfər paradının keçirilməsindən ötən beş ildən çox müddət ərzində bu möhtəşəm hadisə Azərbaycan tarixində şanlı Qələbənin rəmzi kimi yaddaşlara həkk olunub. Bu yubiley yalnız hərbi uğurun deyil, həm də xalqın birliyinin, dövlətin gücünün və Ali Baş Komandanın qətiyyətli rəhbərliyinin təntənəsi kimi dəyərləndirilir. Bu gün də həmin Zəfərin ruhu Azərbaycan Ordusunun inkişafında və ölkəmizin gələcəyə inamla irəliləməsində mühüm rol oynamaqdadır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev daim vurğulayır ki, ordu quruculuğu sahəsində əldə olunan uğurların bütün istiqamətlər üzrə daha da inkişaf etdirilməsi onun fəaliyyətinin əsas prioritetlərindən biridir. Son illər ərzində Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsi, hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər Ali Baş Komandanın hərbi qulluqçuların xidmətinə verdiyi yüksək dəyərin bariz göstəricisidir.

Eyni zamanda, Prezident İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin ordunun şəxsi heyətinə göstərdiyi diqqət və qayğı, ordumuza olan böyük inam və etimad bütün hərbçilərdə qürur və iftixar hissini daha da gücləndirir. Bu gün Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu Ali Baş Komandanın diqqət və qayğısı sayəsində Konstitusiyaya, Hərbi Anda və nizamnamələrə sadiq qalaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə və torpaqlarımızı işğaldan azad etməyə hər an hazırdır.

Bu gün Azərbaycan Ordusu dövlətimizin güc və qüdrətinin bariz nümunəsi, xalqımızın qürur mənbəyi və ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadir yüksək hazırlıqlı bir təsisat kimi çıxış edir. Beynəlxalq hərbi araşdırma mərkəzlərinin qiymətləndirmələrinə əsasən, regionun ən müasir və hazırlıqlı ordularından biri məhz Azərbaycan Ordusudur. Bütün bunlar ordumuzun ən yüksək müasir tələblərə cavab verdiyini aydın şəkildə göstərir. Qeyd olunan nailiyyətlərin hamısı Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı, dövləti, ordusu və müstəqilliyi naminə apardığı məqsədyönlü fəaliyyətin nəticəsi kimi dəyərləndirilir.

Adətən, görkəmli şəxsiyyətlərə obyektiv qiymət verilərkən, onların yaşadıqları dövrün imkanları çərçivəsində hansı nailiyyətlərə imza atdıqları əsas götürülür. Bu baxımdan Dahi Şəxsiyyət Heydər Əliyevin istər Azərbaycana rəhbərlik etdiyi dövrə, istərsə də bu missiyadan kənarda qaldığı mərhələlərə nəzər saldıqda aydın olur ki, o, zamanın və şəraitin yaratdığı imkanlardan xalqının maraqları və inkişafı naminə maksimum səmərə ilə istifadə edib. Azərbaycanda Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs və dövlətçilik xətti bundan sonra da uğurla davam etdiriləcək. Çünki bu siyasət ölkəmizin gələcək inkişafı və tərəqqisi üçün mühüm əhəmiyyət daşıyır.

Ümummilli Lider Heydər Əliyev öz ideyaları, həyata keçirə bilmədiyi layihələri, Azərbaycanın gələcəyinə yönəlmiş böyük plan və arzuları ilə daim xalqımızın yaddaşında yaşayacaq. O, hər zaman uca zirvədə qalacaq. Bu zirvəyə Heydər Əliyevi yüksəldən isə xalqın ona olan sonsuz etimadı və inamıdır. Onun fəth etdiyi ən böyük zirvə isə xalqın qəlbidir. Məhz həmin ucalıqdan Azərbaycanın keçmişi və bu günü ilə yanaşı, gələcəyi və firavan sabahı da aydın şəkildə görünür.

Heydər Əliyev Mərkəzlərində, muzeylərdə və kitabxanalarda Ümummilli Liderin həyat və fəaliyyətinə həsr olunmuş guşə və stendlər maarifləndirici rol oynayır. Orduda xidmət edən hərbi qulluqçular mütəmadi olaraq, bu məkanlara ekskursiyalar edir, hər səfər zamanı Heydər Əliyev irsi ilə daha yaxından və əhatəli şəkildə tanış olurlar. Bu da onların bu irsi daha dərindən mənimsəməsinə xidmət edir.

Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi, xalqımızın rifahının yüksəldilməsi, ordumuzun və dövlətçiliyimizin inkişafı istiqamətində göstərdiyi xidmətlər misilsizdir. Buna görə də əbədiyyətə qovuşmuş Dahi Lider Heydər Əliyevin əziz xatirəsi Azərbaycan Ordusunun şəxsi heyətinin və ümumilikdə xalqımızın qəlbində daim yaşayacaq, heç vaxt unudulmayacaq. Hər birimiz Azərbaycanın gələcəyi naminə Ulu Öndərin zəngin irsini özümüzə nümunə götürərək, həmin zirvənin işığında addımlamağa davam edirik.

Nəticə etibarilə, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, güclü ordunun formalaşdırılması və milli birliyin təmin olunması istiqamətində əsası Əbədiyaşar Komandan Heydər Əliyev tərəfindən qoyulan siyasət bu gün uğurla davam etdirilir və öz bəhrəsini verir. Bu möhkəm təməl üzərində yetişən Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərə imza ataraq, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi və xalqımızın qürur mənbəyinə çevrildi.

Qazanılan bu möhtəşəm qələbə bir daha sübut etdi ki, düşünülmüş siyasət, güclü dövlət idarəçiliyi və vətənpərvər ordu xalqın ən böyük dayağıdır. Bu gün Azərbaycan xalqı qalib dövlətin və qalib ordunun nümayəndəsi kimi gələcəyə inamla baxır, əldə olunan Zəfərin işığında daha böyük uğurlara doğru inamla irəliləyir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

## Şəhid Anar Məmmədovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib








Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn mayor Məmmədov Anar Elşad oğlunun əziz xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbir iştirakçılarına mayor Anar Məmmədovun nümunəvi xidməti və döyüş yolu haqqında ətraflı məlumat verilib.

Anım mərasimində çıxış edənlər şəhidimizin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaətlərindən söz açıblar.

Sonda şəhidin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, həmçinin şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Şəhid Elşən Məmmədovun xatirəsi ehtiramla yad edildi








Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Vətən müharibəsi şəhidi leytenant Məmmədov Elşən Əziz oğlunun doğum günü münasibətilə anım tədbiri və onun şeirlərindən ibarət "Sonsuz misralar - sonsuz bir iz..." adlı kitabın təqdimat mərasimi keçirildi.

Əvvəlcə şəhidimizin məzarı ziyarət olundu, üzərinə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla anıldı, ruhuna dualar oxundu.

Ardınca Şərur rayon Mədəniyyət Sarayında davam edən tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Vətən uğrunda canından keçən şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şərur rayon İcra Hakimiyyətinin, rayon idarə, müəssisə və təşkilat rəhbərlərinin, Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının, şəhid ailələrinin, döyüş əməliyyatlarında sağlamlıqlarını itirmiş döyüşçülərin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edənlər şəhidimizin həyat yolundan və döyüşlərdə göstərdiyi igidlik nümunələrindən bəhs etdilər. Bildirildi ki, Elşən Məmmədov kimi igid oğullarımızın Vətən müharibəsi, eləcə də ondan sonrakı döyüş əməliyyatlarında göstərdiyi şücaət, torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizə hər zaman gənclərə örnək olacaq.

Qeyd olundu ki, şəhidimizin sağlığında qələmə aldığı şeirlərin bir araya toplanaraq "Sonsuz misralar - sonsuz bir iz..." adlı kitab halında nəşr olunması onun zəngin mənəvi dünyasının, Vətənə və torpağa bağlılığının gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət daşıyır. Çıxış edənlər bu təşəbbüsü yüksək qiymətləndirərək şəhidin ailəsinə dərin ehtiram və minnətdarlıqlarını ifadə etdilər.

Çıxışlarda vurğulandı ki, Elşən Məmmədov kimi Vətən oğulları yalnız döyüş meydanında deyil, sözündə, düşüncəsində, yazdığı misralarda da Vətənə xidmət ediblər. Şəhidimizin qəlbindən süzülən hər bir sətir bu torpağa olan sevgisinin ifadəsidir. Bu gün təqdim olunan kitab yalnız bir xatirə deyil, həm də gələcək nəsillərə ötürülən mənəvi mirasdır. Onun əziz xatirəsi daim uca tutulacaqdır.

Sonra tədbir məktəblilərin hazırladıqları bədii hissə ilə davam etdi. Şəhidin müəllifi olduğu şeirlər səsləndirildi, vətənpərvərlik ruhunda musiqi nömrələri ifa olundu.

Daha sonra Elşən Məmmədovun həyat və döyüş yoluna həsr edilən videoçarx nümayiş olundu, xatirə fotoları çəkdirildi.

Qeyd edək ki, Məmmədov Elşən Əziz oğlu 21 aprel 1999-cu ildə Şərur rayonunun Danyeri kəndində anadan olub. İlk təhsilini doğma kənd məktəbində alan Elşən 2013-2016-cı illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2016-2020-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb. Azərbaycan Ordusunun leytenantı olan Elşən Məmmədov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib və oktyabrın 21-də şəhidlik zirvəsinə ucalıb. Şəhidin nəşi Şərur şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb.

O, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

## Milli Müdafiə Universitetinin kursantı Respublika tələbə-şagird elmi konfransında I yerə layiq görülüb





1 may 2026-cı il tarixində Azərbaycan Dillər Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və davamlı inkişafın Azərbaycan modeli" adlı Respublika tələbə-şagird elmi konfransı keçirilmişdir. Konfransa ölkənin müxtəlif təhsil müəssisələrindən 700-ə yaxın iştirakçı qatılmışdır.

Milli Müdafiə Universiteti konfransda tabeliyində olan Heydər Əliyev adına Hərbi İnstitut və Naxçıvan Hərbi Kollecinin kursantları ilə təmsil olunmuş, 11 kursant elmi məruzə ilə çıxış etmişdir.

Milli Müdafiə Universiteti xəbər verir ki, ekspert komissiyasının qiymətləndirməsinə əsasən, Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Mədinə Məmmədova "Tarixi proseslərdə qadınların hərbi sahədə iştirakı: ənənədən müasirliyə" mövzusunda məruzəsinə görə I yerə layiq görülmüşdür. Kursant mövzunun aktuallığı, elmi yanaşması və təqdimat bacarığı ilə fərqlənmişdir.

Bu uğur Milli Müdafiə Universitetində kursantların elmi fəaliyyətə göstərdiyi marağın və hazırlıq səviyyəsinin yüksək olduğunu bir daha nümayiş etdirir. Universitet rəhbərliyi kursantı qazandığı nailiyyət münasibətilə təbrik edir, ona gələcək təhsil və elmi fəaliyyətində yeni uğurlar arzulayır.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2.Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir.**

### Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

Müəyyən mərhələdə önə çıxan fenomen şəxsiyyətlər mənsub olduqları xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali ideallarının gerçəkləşməsində müstəsna rol oynayır, bununla da əbədiyaşarlıq qazanırlar. Məhz onların qurub yaratdıqları, miras qoyduqları irs xalqlarının gələcəyinə işıq salıb, sonrakı tarixini, dünyadakı yerini müəyyənləşdirib. Belə dühalardan biri də şərəfli və mənalı ömür yolunu Azərbaycanın nicatına, milli dövlətçiliyimizin dirçəlməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna qovuşmasına həsr edən Heydər Əliyevdir. Xalqımızın Ümummilli Liderinə çevrilmiş bu dahi insanın adı ölkəmizin simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmiş, həyat və fəaliyyəti doğma Vətəninə və torpağa məhəbbət, sədaqət meyarı olmuşdur.

1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya göz açan Ulu Öndər ilk təhsilini Naxçıvanda alıb. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) “Memarlıq” fakültəsinə daxil olub. İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. 1941-1945-ci illərdə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işlədikdən sonra 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. Hər zaman təhsilə böyük önəm verən Ulu Öndər Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) “Tarix” fakültəsinin qiyabi şöbəsini bitirib. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə ona “general-mayor” hərbi rütbəsi verilib. 1969-cu ildə Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Ulu Öndər Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir. Tarixi inkişafın gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycan Respublikasını Ulu Öndər hələ o zaman qurmağa başlamışdı.

Heydər Əliyevin Ümummilli Liderə çevrilməsini təmin edən başlıca amillərdən biri onun istənilən siyasi şəraitdə xalqın, dövlətin problemlərinə biganə qalmamasıdır. Bu yerdə Ulu Öndərin sovetlər dövründə Azərbaycana rəhbərliyini xatırlamaya bilmərik. Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərliyinin ilk dövrlərindən atdığı addımlarla, keçirdiyi islahatlarla xalqını, dövlətini sevən rəhbər olduğunu sübuta yetirmişdir. Ulu Öndər respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti, ən əsası milli ideallara bağlılığı ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq olmuşdur. SSRİ dövlət təhlükəsizlik sistemində sıravi işçidən rəhbər vəzifəyə kimi yüksəlmiş ilk azərbaycanlı olan Ulu Öndər sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən respublikamızda böyük iqtisadi, elmi yüksəlişlə yanaşı, ədəbi-mədəni inkişafa və müstəqil düşüncəyə yol açmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində, XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə - yüksəliş mərhələsinə daxil olması demək idi. Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra müstəqil Azərbaycanın əsas hədəflərindən biri kimi milli və bəşəri dəyərlərə söykənən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişaf yolu müəyyənləşdi, insan hüquq və azadlıqlarının bərqərar olması üçün münbit ictimai-siyasi şərait yaradıldı, sahəvi qanunlar işlənib hazırlandı, qanunçuluq möhkəmləndirildi, hüquqi islahatlar həyata keçirildi. Ulu Öndərin formalaşdırdığı azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratdı. Son yüz ildə çox ciddi məsələ kimi özünü qabarıq göstərən milli dövlətçilik problemi Ulu Öndər Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində elmdən, nəzəriyyədən əməli siyasət və praktiki həyat müstəvisinə keçirildi.

Azərbaycan Respublikasında müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycan Respublikasının dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləridir.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun nəinki Cənubi Qafqazda, dünyada aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

### Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. 1991-ci ilin 18 oktyabrında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də əsas təşəbbüskarlarından biri kimi imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi göstərmişdir ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanı arxasına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda, insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur. Mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Ulu Öndər dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Azərbaycan Respublikasının zorla cəlb olunduğu Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycan Respublikasını tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə, uğurlu neft strategiyasının təməlini qoydu. Ölkəmizin günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Ulu Öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Ulu Öndər Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Ulu Öndər Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının müasir tarixini əhatə edən, zaman baxımından bir qərinəlik, mahiyyətcə isə əhəmiyyəti əsrlərlə ölçülən mərhələsində həm dünya şöhrətli uzaqgörən siyasi və dövlət xadimi, həm mahir strateq və yenilməz sərkərdə, həm iqtisadi-mədəni intibahın memarı və milli-mənəvi mədəniyyətin böyük hamisi, həm yorulmaz vətənpərvər və polad əqidəli vətəndaş, həm də görkəmli mütəfəkkir və milli ziyalılığın öndəri kimi titanik fəaliyyət göstərmişdir.

(Ardı 8-ci səhifədə)

## İstanbulda “SAHA 2026” Beynəlxalq Müdafiə və Aerokosmik Sərgisinin rəsmi açılışı olub

Mayın 5-dən İstanbulda "SAHA 2026" Beynəlxalq Müdafiə və Aerokosmik Sərgisi işə başlayıb.

AZƏRTAC xəbər verir ki, sərginin rəsmi açılış mərasimi keçirilib.

Ümumilikdə 400 min kvadratmetr sahədə təşkil edilən, 120-dən çox ölkədən iştirakın gözlənildiyi sərgidə 263-ü beynəlxalq olmaqla, 1700-dən artıq şirkət, 200 mindən çox ziyarətçi və 30 mindən çox sahə mütəxəssisi iştirak edir.

Azərbaycan tədbirdə Müdafiə Nazirliyi və Müdafiə Sənayesi Nazirliyi tərəfindən rəhbərlik səviyyəsində təmsil olunur.

Sərgi çərçivəsində 30 mindən artıq görüş planlaşdırılır ki, bu da tədbiri nümayiş platformasından çıxararaq birbaşa biznesin inkişafı, təchizat zəncirinin uyğunlaşdırılması və strateji tərəfdaşlıqların qurulması məkanına çevirəcək. Sərgi çərçivəsində imzalanacaq ixrac müqavilələrinin həcminin ən azı 8 milyard dollara çatdırılması hədəfi qoyulub. Qeyd edək ki, "SAHA 2024"də bu rəqəm 6,2 milyard dollar olub.

Tədbirdə 203 yeni məhsulun təqdimatı və 164 imza mərasiminin keçirilməsi planlaşdırılır.

Yüksək texnologiyalı və innovativ məhsulların ilk dəfə qlobal ekosistemə təqdim olunacağı sərgidə pilotsuz quru nəqliyyat vasitələri və rover tipli sistemlər də xüsusi sahələrdə nümayiş etdiriləcək.



Türkiyənin Hərbi Dəniz Qüvvələrinə aid platformalar da ziyarətçilər üçün açıq olacaq. Belə ki, dünyanın ilk SİHA gəmisi kimi tanınan "TCG Anadolu" başda olmaqla, Türkiyə Hərbi Dəniz Qüvvələrinə məxsus gəmilər İstanbulun Ataköy Marina və Sarayburnu Limanında yerləşdiriləcək, yerli pilotsuz dəniz vasitələri sərgilənəcək.

Tədbirdə KOBİ-lərin qlobal bazarlara çıxışı və beynəlxalq əməkdaşlıqlara inteqrasiyası dəstəklənəcək.

Tədbirin daha bir əsas mövzu isə aerokosmik ekosistemidir. Bu məqsədlə xüsusi Kosmos Pavilyonu və "Space Dome" zonası yaradılaraq kosmik texnologiyalar daha geniş şəkildə nümayiş etdirilir.

Qeyd edək ki, Türkiyə müdafiə sənayesi şirkətləri yeni məhsulları ilə tədbirdə iştirak edir.





## Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir. Tarixə Azərbaycan xalqının Ümummilli Lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Tanrı ona hər bir üstünlüyü bəxş etmişdi: yaraşıqlı boy-buxun, təbəssüm və sərtliyi sintez edən sima, gələcəyi dəqiq müəyyənləşdirən, tarixin nizamını təmin edən təfəkkür, parlaq natiqlik məharəti, qüdrətli siyasi iradə, güclü dövlətçilik duyğusu, çevik idarəetmə məharəti, insanların qəlbinə yol tapmaq, xalqın qüdrətinə arxalanmaq bacarığı! Bir sözlə, Ulu Öndər Heydər Əliyev qalibiyyət əzmiylə yaşayan və dövləti cəsarətlə idarə edən möhtəşəm bir şəxsiyyət idi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev atasından qalan nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyində tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Azərbaycan Respublikasının dünyadakı nüfuzlu, vüsətli siyasi və iqtisadi yüksəlişi sübut edir ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qalibiyyət əzmini dövlət idarəçiliyinin sarsılmaz baş xətti kimi inadkar bir inamla qoruyub saxlayır. Xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ərazi bütövlüyümüzü bərpa etdi və eyni zamanda, ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində əsas prinsipləri təsbit edən Azərbaycan, eyni zamanda, iqtisadiyyatın inkişafında da misli görünməmiş uğurlara imza atmaqdadır. Dövlət başçısı cənab İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda iqtisadi və sosial sahələrdə köklü islahatların davam etdirilməsi, dövlət proqramlarının icrası, dinamik sosial-iqtisadi inkişafının qarşıya qoyulmuş məqsədlərə çatmasının göstəricisidir.

Əsası Ulu Öndərimiz, Əbədiyaşar Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanda siyasi və iqtisadi islahatların keçirilməsi hesabına qazanılan böyük uğurlar parlaq və fərəhlidir. Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qurduğu müstəqil, demokratik və azad bir ölkənin vətəndaşlarıyıq!

**İdeoloji Təminat İdarəsi**

## MMU-nun komandası Bakı Marafonunda iştirak edib



*Mayın 3-də Bakı şəhərində "Küləyə qalib gəl" şüarı altında "Bakı Marafonu-2026" keçirilib.*

Milli Müdafiə Universiteti xəbər verir ki, idmanın inkişafına dəstək göstərmək və sağlam həyat tərzini təbliğ etmək məqsədilə keçirilən marafonda peşəkar və həvəskar idmançılar, tanınmış ictimai-siyasi xadimlərlə yanaşı, Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutdan 40 nəfərdən ibarət heyət də iştirak edib.



Marafonun start nöqtəsi Dövlət Bayrağı Meydanı, finiş nöqtəsi isə "Sea Breeze" ərazisi olub. MMU-nun komandası 42 kilometrlik məsafəni inamla və əzmlə qət edərək yarışa xüsusi ruh və intizam qatıb.



Tədbir boyunca gənc hərbçilər öz fiziki hazırlıqları və vətənpərvərlik ruhları ilə diqqət çəkib. Marafona qatılmaqla onlar cəmiyyətə sağlam həyat tərzinin, mütəmadi idmanın və vətəndaş həmrəyliyinin vacibliyini bir daha nümayiş etdiriblər.

## Xəbərlər: hadisələr, faktlar

### ABŞ İrana qarşı hərbi əməliyyatları bərpa etməyə yaxındır



ABŞ İrana qarşı genişmiqyaslı hərbi əməliyyatların bərpasına yaxınlaşır.

Bu barədə "Fox News" Amerika rəsmilərinə istinadla məlumat yayıb. Məlumata görə, İranın ABŞ gəmilərinə raket və dron hücumları, həmçinin BƏƏ-ni hədəf alması fonunda vəziyyət kəskinləşib. Rəsmilər bildiriblər ki, son qərarı ABŞ Prezidenti Donald Tramp verəcək və ordu əməliyyatlara hazırdır.

Qeyd olunur ki, ABŞ ordusu Hörmüz boğazı və Körfəz ətrafında ticarət gəmilərinin təhlükəsizliyini təmin etmək üçün "Azadlıq" əməliyyatı həyata keçirir.

ABŞ hərbi rəhbərliyi bildirib ki, komandirlər təhlükə yaranacağı halda, qabaqlayıcı zərbələr endirmək səlahiyyətinə malikdirlər.

### BƏƏ raket və PUA hücumuna məruz qalıb



Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) raket hücumuna məruz qalıb. İrandan atıldığı bildirilən 4 qanadlı raketin üçü səmada zərərsizləşdirilib, biri isə dənizə düşüb.

Bu barədə BƏƏ Müdafiə Nazirliyi məlumat yayıb.

Bundan başqa, Fuzeyrada "Fauz" neft sənayesi rayonunda PUA hücumu nəticəsində yanğın baş verib. Mülki Müdafiə Qüvvələri yanğının söndürülməsinə başlayıblar.

Eyni zamanda, gün ərzində BƏƏ-nin ADNOC şirkətinə məxsus neft tankeri Hörmüz boğazından keçərkən iki PUA ilə hədəfə alınıb.

### Hörmüz boğazında gərginlik: İran ABŞ gəmilərinə xəbərdarlıq atəşi açıb



İran ordusu Hörmüz boğazından keçməyə çalışan ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmilərinə xəbərdarlıq atəşi açıb.

İran dövlət televiziyası bu barədə İran Silahlı Qüvvələrinə istinadla məlumat yayıb. "İlkin xəbərdarlığa məhəl qoymayan ABŞ esmineslərinin yaxınlığına qanadlı raketlərlə xəbərdarlıq atəşi açılıb və dronlar buraxılıb", - deyə məlumatda bildirilir.

Qeyd edək ki, bir müddət öncə "Fars" xəbər agentliyi İran Silahlı Qüvvələrinin xəbərdarlığına məhəl qoymadan Hörmüz boğazını keçməyə cəhd edən Amerika gəmisinə atəş açıldığı barədə məlumat yaymışdı.

**AZƏRTAC-ın materialları əsasında**

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əbilov İlkin Əşrəf oğluna verilmiş AD № 0025119 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Qoldberq Qeorqiy Valeryeviçə verilmiş MV № 087820 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Hüsniyyə NƏSİROVA | Lisenziya № 361 Sifariş № 470 Nüsxə 3653 |